# Qənirə Paşayeva Bayburtda Qarabağ münaqişəsi ilə bağlı konfrans keçirib

**TÜRKİYƏNİN** ən böyük bölgələrindən biri olan Bayburtda millət vəkili Qənirə Paşayeva Qarabağ münaqişəsi, Xocalı Soyqırımı, qondarma erməni soyqırımı iddiaları ilə bağlı konfrans keçirib. Konfransda əslən bayburtlu olan SOCAR Türkiyənin rəhbəri Kənan Yavuz çıxış edərək Azərbaycan-Türkiyə arasında bütün istiqamətdə, o cümlədən iqtisadi sahədə genişlənən münasibətlərdən, Azərbaycanın Türkiyəyə qoyduğu sərmayələrdən və onun hər iki dövlət üçün böyük əhəmiyyətindən danışıb. ***Yüzlərlə ziyalının, yerli sakinlərin, KİV təmsilçilərinin iştirak etdiyi konfransda millət vəkili Qənirə Paşayeva geniş məruzə ilə çıxış edib və sualları cavablandırıb. O, Qarabağ dünyada yaşayan bütün azərbaycanlıların, türklərin vətənidir və tədbir iştirakçılarının əksəriyyətinin Qarabağda olmamasına baxmayaraq, Qarabağın hər birimiz üçün doğma olduğunu qeyd edib:*** "Biz inanırıq ki, Ermənistanın işğal etdiyi gözəl Dağlıq Qarabağımız da, işğal altındakı digər o gözəl bölgələrimizin də işğaldan azad olduğu gün çox tezliklə gələcək və biz oranı ziyarət edəcəyik".

***Qənirə Paşayeva qeyd edib ki, Qarabağın qədim tarixi var. Qarabağ əsrlər boyu Azərbaycan və türk tarix və mədəniyyətinin beşiklərindən biri olub. Mədəniyyətimizə əvəzsiz töhfələr verən dahi şəxsiyyətlər orada yetişib:*** "Hər bir Türk insanı Qarabağı hər gün yad etməli və gələcək nəsillərə çatdırmalıdır. Hər birimiz Qarabağı sevməliyik, xatırlamalıyıq ki, o işğal altındadır. Çox təəssüf ki, işğalçılar tariximizi silmək üçün orada yerləşən mədəniyyət və tarixi abidələrimizi məhv edirlər və dünya buna göz yumur".

***Millət vəkili Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə daha geniş çatdırılmasında türk gənclərinin üzərinə böyük vəzifələr düşdüyünü bildirib. Qənirə Paşayeva Dağlıq Qarabağ münaqişəsinin bütün Türk dünyasının məsələsi olduğunu bildirib:*** "Harada doğulmasından və harada yaşamasından asılı olmayaraq hər bir Türk insanı Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində səylərini artırmalıdır».

***Bu işdə böyüyən gəncliyin üzərinə böyük vəzifə düşdüyünü vurğulayan millət vəkili gəncliyi türk dünyasının böyük liderləri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət iki dövlətdir" – ruhunda böyütmək olduğuna diqqəti cəlb edərək deyib:*** "Harada doğulmasından və yaşamasından asılı olmayaraq millətimizin böyüyən gəncliyinə tariximizi çox yaxşı öyrətməliyik ki, onlar tariximizə sahib çıxa bilsinlər", – deyib. Millət vəkili Azərbaycanın qondarma erməni soyqırımı idddialarına qarşı mübarizədə daim qardaş Türkiyənin yanında olduğunu bildirib. O deyib ki, qondarma erməni soyqırımına qarşı mübarizə harada doğulmasından və harada yaşamasından asılı olmayaraq hər bir Türk insanının vəzifəsidir. Q.Paşayeva Türk gəncliyini Qarabağ həqiqətləri və qondarma erməni soyqırımı yalanlarının qarşısının alınması istiqamətində daha fəal mübarizəyə çağırıb və sosial şəbəkələrin təqdim etdiyi imkanlardan geniş istifadə etməyin vacibliyini qeyd edib Millət vəkili gəncləri, ziyalıları və KİV təmsilçilərini maraqlandıram sualları geniş cavablandırmış və fikir mübadiləsi aparılıb.

***Tədbirin sonunda Bayburt valisi və BEKDER rəsmiləri millət vəkili Qənirə Paşayevaya dəvəti qəbul etdiyi və konfrans üçün təşəkkürünü bildirərək ona Bayburtun tarixi, mədəniyyəti ilə bağlı geniş materialları təqdim ediblər.***

***Elməddin***